

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 223 (23.134)

*22 noyabr 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Türkmənistana rəsmi səfərə gəlib.

Prezident İlham Əliyevi Türkmənistanın Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredov və digər yüksək vəzifəli şəxslər qarşılayıblar.

Dövlətimizin başçısı noyabrın 21-də Aşqabadda "Xalq xatirəsi" memorial kompleksini ziyarət edib.

Prezident İlham Əliyev "Əbədi şöhrət" abidəsinin önünə əklil qoyub.

Sonra dövlətimizin başçısı "Vətən müqəddəsliyi" muzeyi ilə tanış olub.

Prezident İlham Əliyev 1881-ci ildə baş vermiş Göytəpə döyüşlərinin instalyasiyasına baxıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda Olimpiya Kompleksi ilə tanış olub.

Dövlətimizin başçısı həmin gün Aşqabadda Türkmən milli xalça muzeyi ilə də tanış olub.



## Heydər Əliyev siyasi xətti Azərbaycanın dünəni, bu günü və gələcəyidir

### *Şərur rayonunun Kosacan kəndi müasir yaşayış məntəqəsinə çevrilib*

1992-ci il noyabrın 21-də ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında Yeni Azərbaycan Partiyasının yaradılması müstəqil Azərbaycanın siyasi və dövlətçilik tarixində mühüm mərhələ təşkil edir. Xalqın və zamanın tələbi ilə yaranan Yeni Azərbaycan Partiyası ulu öndərin rəhbərliyi ilə Azərbaycanı xaos, parçalanmaq və məhv olmaq təhlükəsindən xilas edərək müstəqil dövlətçilik və davamlı inkişaf mərhələsinə çıxarıb. Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında aparılan geniş-miqyaslı quruculuq işləri və həyata keçirilən sosial-iqtisadi islahatlar Yeni Azərbaycan Partiyasının təməlində duran inkişaf, sabitlik və yüksək rifah prinsiplərinin bəhrələridir.

Noyabrın 21-də – Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümündə Şərur rayonunun Kosacan kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Kosacan kənd tam orta məktəb binası istifadəyə verilmişdir

Noyabrın 21-də Kosacan kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbin açılışını bildirən lenti kəsmişdir.

Kosacan kənd tam orta məktəbinin direktoru Asim Həsənov çıxış edərək demişdir ki, muxtar respublikanın bütün yaşayış məntəqələrində olduğu kimi, Kosacan kəndində də geniş quruculuq işləri aparılmışdır. Kosacan kənd tam orta məktəbi əvvəllər köhnə və şəraiti olmayan binada fəaliyyət göstərirdi. Müasir məktəb binasında fəaliyyət göstərmək ən böyük arzumuz idi. Kollektivimizin arzusu reallığa çevrilib. Bu gün müasir tədrisin tələblərinə uyğun qurulmuş məktəb binası istifadəyə verilir. Asim Həsənov kənd sakinləri və kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kosacan kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***"Hər bir xalqın səviyyəsini onun təhsil səviyyəsi müəyyən edir"*** fikrini xatırladaraq demişdir: Bu gün ölkəmizdə təhsil sahəsində həyata keçirilən tədbirlər, görülən işlər və yaradılan şərait xalqımızın gələcəyinə, onun yüksək səviyyəyə malik olmasına xidmət edir. Yeni məktəblər tikilir, tədrisdə müasir texnologiyalar tətbiq olunur, təhsil müəssisələri lazımi avadanlıq və kitablarla təmin olunur. Yaradılan şərait təhsilin inkişafına öz töhfəsini verir.





Ali Məclisin Sədri demişdir: Ölkəmizdə təhsilin inkişafını hər il ali məktəblərə qəbul olan tələbələrin səviyyəsi bir daha təsdiq edir. Kosacan kənd tam orta məktəbinin timsalında da bunu görmək mümkündür. Kollektivin əməyi hədər getməyib. Son 5 ildə Kosacan kənd tam orta məktəbinin məzunları yüksək nəticələr göstərərək muxtar respublikada və muxtar respublikadan kənarda fəaliyyət göstərən ali təhsil müəssisələrinə qəbul olunublar. Həmçinin məktəbin şagirdləri Heydər Əliyev adına Hərbi Liseydə və peşə məktəblərində təhsillərini davam etdirirlər. Qazanılan bu nailiyyətlər məktəb kollektivinin muxtar respublikada təhsilin inkişafına verdiyi töhfədir. Bütün bunlar isə onu deməyə əsas verir ki, Kosacan kənd tam orta məktəbində müəllim tələbkarlığı və şagird çalışqanlığı vardır.

Kollektivə təşəkkürünü bildirən Ali Məclisin Sədri demişdir: Məktəb tikmək, müasir tədris şəraiti yaratmaq işin bir tərəfidir. Yaradılan şəraitdən səmərəli istifadə etmək isə qarşıda duran əsas vəzifədir. Kosacan kənd tam orta məktəbində yaradılan şərait imkan verəcəkdir ki, həm müəllimlər dərsləri yaxşı tədris etsinlər, həm də şagirdlər keçirilən dərsləri qavrama yolu ilə mənimsəsinlər.

Ali Məclisin Sədri demişdir: Müasir tədris şəraiti təkcə yeni məktəb binası tikməkdən ibarət deyil. Müasir tədris şəraiti məktəbdə elektron lövhələrin quraşdırılması, internetə çıxışı olan kompüter siniflərinin, şahmat otaqlarının, idman zalının, zəngin fonda malik kitabxananın və ixtisaslı müəllim kollektivinin olması deməkdir. Bu şərait gələcəyimiz olan gənclərin təhsilli böyüməsində və ölkəmiz üçün yararlı vətəndaşlara çevrilməsində əsas amildir. Məktəbdə şagirdlər maraqlarına uyğun peşələrə yönləndirilməli, hər bir şagird özünə peşə seçməlidir. Bu vəzifələrin yerinə yetirilməsi üçün ölkəmizdə hər cür şərait yaradılıb. Təhsilin inkişafı üçün qəbul olunmuş dövlət proqramları bu sahədə geniş imkanlar açır. Ölkəmizdə, eləcə də onun Naxçıvan Muxtar Respublikasında müasir şəraitlə təmin olunmuş peşə məktəbləri, orta ixtisas və ali təhsil müəssisələri fəaliyyət göstərir. Məktəbin kollektivinin qarşısında duran əsas vəzifə də ondan ibarətdir ki, gələcəyimiz olan gəncləri təhsilli, peşə sahibi olan, dünyagörüşlü və vətənpərvər böyütsünlər.

Ali Məclisin Sədri Kosacan kənd tam orta məktəbində yaradılmış şəraitdən səmərəli istifadə olunacağına və nailiyyətlərin daha da artırılacağına əminliyini bildirmiş, kollektivə uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri məktəb binasında yaradılan şəraitlə maraqlanmışdır. Məlumat verilmişdir ki, 234 şagird yerlik üçmərtəbəli məktəbdə 2-si elektron lövhəli olmaqla, 15 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter otağı, müəllimlər otağı, psixoloq otağı, kitabxana və idman zalı vardır.

Məktəbdə kitabxana işi günün tələbləri səviyyəsində qurulub. Hazırda kitabxana fondunda 1076-sı dərslik və 3200-ü bədii ədəbiyyat olmaqla, 4276 kitab vardır. Burada "Oxunması zəruri olan kitablar"dan ibarət guşə yaradılmışdır. Muxtar respublikanın ümumtəhsil məktəblərində kitabxana işinin təşkili mövzusunda konfrans və seminarların keçirilməsi bu sahədə fəaliyyətin səmərəli təşkilinə imkan verir.

Məktəbdə tədrisin səviyyəsi ilə tanışlıq zamanı qeyd olundu ki, 2018-2019-cu tədris ilində Kosacan kənd tam orta məktəbində birinci sinfə 14 şagird qəbul olunub. Həmçinin ötən tədris ilində məktəbin 8 məzunu ali məktəblərə sənəd vermiş, onlardan 7-si tələbə adını qazanmışdır. 9-cu sinif bazasından 2 şagird

*Ardı 2-ci səhifədə*



orta ixtisas məktəbinə, 1 şagird isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmuşdur.

Laboratoriyalarda lazımi təcrübə avadanlıqları qoyulmuş, idman zalında, hərbi kabinədə və sinif otaqlarında müasir tədris şəraiti yaradılmışdır. Kompüter otağında 19 kompüter quraşdırılmış və internetə qoşulmuş, məktəb elektron dərsliklərlə təmin edilmişdir.

Şahmat sinfinə baxış zamanı qeyd olundu ki, məktəbin şagirdləri şahmata böyük maraq göstərirlər. Bu il məktəbin 3 şagirdi rayon və muxtar respublika birinciliklərində uğurlu nəticə göstərib.

Ali Məclisin Sədri şagirdlərin kitabxanaya cəlbi və onlarda mütaliə vərdişlərinin yaradılması, şahmat, fiziki tərbiyə və çağırışaqədər hazırlıq dərslərinə diqqətin artırılması barədə tapşırıqlar vermişdir.

Elektron lövhəli sinifdə ümumtəhsil məktəbləri ilə Xan Sarayı Dövlət Tarix-Memarlıq Muzeyi arasında keçirilən interaktiv dərs izlənilmişdir. Eyni vaxtda distant təhsil şəbəkəsinə muxtar respublikanın 224 təhsil müəssisəsi qoşulmuşdu.

Ali Məclisin Sədri müəllimlər otağında olmuş, pedaqoji kollektivi təbrik edərək demişdir: Məktəbdə yaradılan şərait tədrisin düzgün təşkilinə imkan verəcəkdir. Yaxşı iş şəraiti, eyni zamanda yaxşı əhval-ruhiyyə deməkdir. Bu gün muxtar respublikanın şəhər məktəbləri ilə kənd məktəbləri arasında fərq yoxdur. Bütün məktəblərdə eyni tədris şəraiti yaradılıb. Son 5 ildə Kosacan kənd tam orta məktəbinin məzunlarının 87 faizi ali və orta ixtisas məktəblərinə qəbul olub. Məktəbdə bütün fənlər üzrə ixtisaslı müəllimlər fəaliyyət göstərir. Bütün bunlar isə imkan verəcək ki,



məktəbin nailiyyətləri daha da artsın. Təhsilin nəticəsi yalnız ali məktəblərə qəbulun səviyyəsi ilə deyil, həm də məzun olan şagirdlərin peşə sahibi olması ilə ölçülməlidir. Qarşıda duran əsas vəzifə odur ki, məktəbi bitirən hər bir şagird təhsilli və özünə peşə seçmiş vətənpərvər gənc kimi formalaşsın.

Məktəbin müəllimi Vəfa Məmmədova demişdir: Kosacan kənd tam orta məktəbində yaradılmış şərait təhsil işçiləri qarşısında mühüm vəzifələr qoyur. Göstərilən qayğı müəllimlərin daha yaxşı işləmələri üçün zəmin yaradır və məsuliyyəti artırır. Əmin edirik ki, məktəbdə yaradılanlardan səmərəli istifadə edəcək, savadlı və vətənpərvər gənclər yetişdirməklə göstərilən etimadı doğruldacağıq.

Məktəbin həyətində bufet və fərdi qazanxana tikilmiş, açıq idman qurğuları quraşdırılmış, yaşıllıq salınmışdır.

## Kosacanda Kənd Mərkəzinin açılışı olub






Noyabrın 21-də Kosacanda yeni kənd mərkəzinin də açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsdikdən sonra binada yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, kənd mərkəzində 9 dövlət təşkilatı – inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, feldşer-mama məntəqəsi, statistika otağı, klub, o cümlədən Yeni Azərbaycan Partiyası Kosacan kənd ərazi ilk təşkilatı, arxiv və 44 yerlik zal yerləşir. Bütün təşkilatlar üçün müasir iş otaqları ayrılmış və lazımi inventarlarla təchiz edilmişdir. Kənd kitabxanasında 2589 kitab vardır.



Yeni Azərbaycan Partiyası Kosacan kənd ərazi ilk təşkilatının 183 üzvündən 30-u gənc, 68-i isə qadındır.

Ali Məclisin Sədri 1992-ci il noyabrın 21-də Naxçıvanda ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının təsis olunduğunu və ötən dövrdə partiyanın böyük inkişaf yolu keçdiyini bildirmiş, Yeni Azərbaycan Partiyası Kosacan kənd ərazi ilk təşkilatının üzvlərini, eləcə də onların timsalında Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının bütün üzvlərini və təəssübkeşlərini təbrik etmişdir.

Rabitə evində yeni poçt bölməsi fəaliyyətə başlamış, 384 yerlik yeni nəsil ATS quraşdırılmışdır. Baxış zamanı qeyd olunmuşdur ki, kəndə 2 min metr fiber-optik xətt çəkilmiş, sürətli və kəsintisiz internetə çıxış imkanı yaradılmışdır. Kənddə 49 internet istifadəçisi vardır.

Binanın birinci mərtəbəsində feldşer-mama məntəqəsi üçün 4 otaq ayrılmışdır. Məntəqəyə ginekoloji müayinə masası, mama müayinə alət dəsti, qlükometr, tərəzi, boyölçən, soyuducu və digər tibbi avadanlıqlar verilmişdir. Qeyd olunmuşdur ki, bu il Kosacan kəndində 13 uşaq doğulmuşdur. Hazırda 15 hamilə qadın məntəqədə qeydiyyatdadır.

Ali Məclisin Sədri əhalinin sağlamlığının qorunması, xüsusilə uşaqlarda peyvənd və hamilə qadınlarda patronaj işinin təşkili ilə bağlı tapşırıqlar vermişdir.

## Kənddə yeni xidmət obyekti fəaliyyətə başlayıb






Həmin gün Kosacan kəndində yeni xidmət mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, dərzi, ərzaq və təsərrüfat malları mağazaları, eləcə də 2 anbar yerləşir. Mərkəzdə 6 sakin işlə təmin olunub. Mağazada ərzaq və sənaye malları ilə yanaşı, kənddəki ailə təsərrüfatlarında istehsal olunan meyvə şirələri, turşular, qoz, alma, armud, soğan, kartof və digər məhsullar da satışa çıxarılmışdı.

*Ardı 3-cü səhifədə*

# Kosacan kənd avtomobil yolu yenidən qurulub





Muxtar respublikada yol infrastrukturunun yenilənməsi istiqamətində aparılan işlər ardıcıl şəkildə davam etdirilir. Xüsusilə kəndlərdə avtomobil yollarının yenidən qurulması, həmçinin daxili yolların təmiri yaşayış məntəqələrinin turizm və kənd təsərrüfatı potensialını daha da artırır.

Noyabrın 21-də Kosacan kənd avtomobil yolu istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, yolun yenidən qurulması münasibətilə sakinləri təbrik edərək demişdir: Kosacan kəndi bu gün müasir yaşayış məntəqələrinin sırasına daxil oldu. Kənddə şəhər rahatlığı yaradılmış, müasir məktəb binası, kənd və xidmət mərkəzləri tikilmiş, kənd yolu yenidən qurulmuşdur. Kəndin məhsuldar torpaqları, daimi suyu, zəhmətkeş insanları vardır. Kosacan kəndi öz təsərrüfat ənənələri ilə daim seçilib, muxtar respublikanın ərzaq təminatında xüsusi rolu olub. Bu gün də kənddə torpaqlar əkilir, heyvandarlıq, maldarlıq, arıçılıq və quşçuluq inkişaf etdirilir. Dövlətin yaratdığı şəraitdən səmərəli istifadə olunmalı, ailə təsərrüfatları genişləndirilməli, maldarlıq və heyvandarlıqda cins tərkibi yaxşılaşdırılmalı, əkinçilikdə məhsuldar toxum sortlarından istifadə olunmalı, aqrotexniki qaydalara əməl edilməli, məhsuldarlıq artırılmalıdır. Yaradılan şərait kəndin inkişafına və insanların rahat yaşayışına hesablanıb. Ona görə də tikilənlər, qurulanlar qorunub saxlanılmalıdır.



Kənd ağsaqqalı Mehman Nəcəfov demişdir: Bu gün Kosacan kəndində aparılan quruculuq işləri və yaradılan şərait bütün sakinlər tərəfindən sevinclə qarşılanır. Çünki Sovetlər Birliyi 70 ildə belə şərait yarada bilməmişdi. Lakin bu gün daimi işığımız, qazımız, internetimiz, bir sözlə, rahat yaşayışımız var. Dövlətin dəstəyi ilə təsərrüfatlarımız genişlənir, dolanışığımız gündən-günə yaxşılaşır. Kəndimizdə tikilən yeni məktəb binası, kənd və xidmət mərkəzləri, çəkilən müasir və rahat yol dövlətimizin öz vətəndaşlarına qayğısının əyani ifadəsidir. Kosacan müasir inkişaf dövrünü yaşayır. Muxtar respublikada aparılan quruculuq işləri, abadlaşan kəndlər, insanların rahat yaşayışının təmin olunması ən böyük vətənpərvərlik nümunəsidir. Mehman Nəcəfov sakinlər adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri kənd sakinləri ilə xatirə şəkli çəkdirmişdir.

Yolda görülən işlərlə tanışlıq zamanı məlumat verilmişdir ki, 5,7 kilometrlik yola asfalt örtük salınmış, 6500 metr kənddaxili yol təmir olunmuşdur. Yolun üzərində 76 su keçidi və 19 suötürücü qoyulmuş, 1524 metr beton kanal çəkilmişdir. Avtomobil yolunda nəqliyyat vasitələrinin normal hərəkətinin təmin edilməsi üçün yol-cizgi və yolgöstərici xətlər çəkilmişdir.

* * *

Muxtar respublikanın kəndlərində aparılan quruculuq işləri yeni sosial obyektlərin tikilməsi ilə məhdudlaşmır. Kəndlərdə mövcud infrastruktur da yenilənir, geniş abadlıq işləri görülür. Kosacan kəndində də 2219 metr yeraltı və 8718 metr hava rabitə xətti, 8156 metr izolyasiyalı hava elektrik xətti çəkilmiş, 2 transformator yarımstansiyası qurulmuşdur. Həmçinin kənddə 3011 metrlik qaz xəttində təmir-bərpa işləri aparılmış, 1340 metr içməli su xətti yenilənmiş, mövcud subartezian quyusu əsaslı təmir olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Açıq dərs keçilib



*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi irsinin gənclərə öyrədilməsi məqsədilə Naxçıvan Müəllimlər İnstitutunun tələbələrinə açıq dərs keçilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin böyük məsləhətçisi Tural Rzayev çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyasının ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi dövlət qurulmasından ibarət olub. Bu məram partiya sıralarının qısa müddətdə vətənpərvər gənclərin hesabına genişlənməsinə səbəbiyyət verib.

Qeyd edilib ki, müstəqillik illərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən gənclər siyasəti milli dəyərlərə söykənən, Vətəninə, xalqına bağlı olan, müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsi məqsədi daşıyıb. Ulu öndərin gənclərlə çoxsaylı görüşü, dəyərli tövsiyələri onların ümummilli maraqlar və dövlət mənafeyi ətrafında birləşmələrinə xidmət edib. Gənclərlə iş sahəsində normativ-hüquqi sənədlərin qəbul edilməsi, gənclərin dövlət quruculuğuna fəal cəlb olunması dövlətin gənclər siyasətinə mühüm töhfə verib. Ümummilli liderimizin əsasını qoyduğu gənclər siyasəti bu gün muxtar respublikamızda da uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində gənclərin sağlam, vətənpərvər ruhda formalaşmaları, yüksək səviyyədə təhsil almaları, cəmiyyətin müxtəlif sahələrində fəal iştiraklarının təmin edilməsi üçün ardıcıl tədbirlər görülür. Görülən işlərin nəticəsidir ki, onlar bu gün öz intellektual səviyyələri, bilik və bacarıqları ilə seçilir, mötəbər tədbirlərdə xalqımızı layiqincə təmsil edir, beynəlxalq idman yarışlarında Azərbaycan bayrağını ən yüksək kürsülərdə dalğalandırırlar. Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi də gənclərimizin fəallığının əsas göstəricilərindən biridir. Tural Rzayev sonda vurğulayıb ki, Azərbaycan gənci bundan sonra da dövlətçilik ənənələrini daim uca tutacaq, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda formalaşacaq.

Heydər Əliyev Muzeyinin direktoru, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini Ramil Orucəliyev isə vurğulayıb ki, Naxçıvanda taleyüklü tarixi qərarların qəbul edildiyi bir vaxtda ölkəmizdə naşı, səriştəsiz rəhbərlərin yarıtmaz siyasəti milli dövlətçiliyimizin real məhvolma təhlükəsi ilə üz-üzə qalmasına səbəb oldu. Məhz bu zaman xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan ümummilli liderimizin düşünülmüş siyasəti nəticəsində Azərbaycanda əmin-amanlıq bərqərar edildi, ölkəmiz çiçəklənmə dövrünə qədəm qoydu. Bu gün hərtərəfli inkişaf edən respublikamız və onun ayrılmaz tərkib hissəsi olan qədim diyarımız Heydər Əliyev ideyalarının işığında özünün yüksəliş mərhələsini yaşayır.

Qeyd edək ki, tədbir Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi və partiyanın Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilib.

**✍ Ceyhun MƏMMƏDOV**

# Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü qeyd olunub



Culfa rayonunun Dizə Kənd Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümünə həsr olunmuş tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimovun məruzəsi dinlənilib. O bildirib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanan, dövlətimizi böhrandan qurtaracaq yeni siyasi qüvvəyə ehtiyac var idi. Belə bir siyasi partiyanın rəhbəri yalnız dahi şəxsiyyət, dünya səviyyəli siyasətçi və dövlət xadimi, həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən Heydər Əliyev ola bilərdi. Beləliklə, 1992-ci il noyabr ayının 21-də Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvan şəhərində keçirildi və ulu öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi.

Ötən illər ərzində muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirlərindən ətraflı söhbət açan Qadir İbrahimov bu istiqamətdə Culfa rayonunda da görülən işlərdən danışıb. Qeyd edib ki, Naxçıvanın Şərqə açılan qapısı olan Culfada misligörünməmiş quruculuq tədbirləri, abadlıq işləri geniş vüsət alıb. Culfa şəhəri simasını dəyişib, 20 kənd abadlaşdırılaraq müasir yaşayış məntəqələri siyahısına daxil edilib. 17 kənd mərkəzində Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatları üçün iş otaqları ayrılıb, hərtərəfli şərait yaradılıb. Hazırda rayon mərkəzində və kənd yaşayış məntəqələrində quruculuq işləri uğurla davam etdirilir, yeni iş yerləri açılır, əhalinin həyat səviyyəsi yüksəlir. Bu tədbirlərdə Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının üzvləri fəallıq göstəriblər.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib, şagirdlər ümummilli liderimizə, Vətənə həsr olunmuş şeirlər söyləyiblər.

Sonda partiya sıralarına qəbul olunan bir qrup gəncə üzvlük vəsiqələri təqdim edilib.

* * *



Kəngərli rayonunun Şahtaxtı kəndində keçirilən tədbirdə partiyanın Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva "Yeni Azərbaycan Partiyası inkişaf və tərəqqi partiyasıdır" mövzusunda çıxış edib.

Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi inkişafında müstəsna yeri, əhəmiyyətli fəaliyyəti və əvəzedilməz xidmətləri ilə istisnasız bir tarix yaratmış partiyadır. Bu tarix Azərbaycan xalqının əldə etdiyi milli müstəqillik, istiqlaliyyət, dövlətçilik mübarizəsi və nailiyyətləri ilə qırılmaz surətdə bağlıdır.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışı ilə Yeni Azərbaycan Partiyası iqtidar partiyası statusu qazandı. Dahi rəhbərin zəngin dövlətçilik təcrübəsi, mahir diplomatik-siyasi fəaliyyəti və yenilməz iradəsi ilə qüdrətli bir ölkə quruldu. Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib.

Sevda Quliyeva diqqətə çatdırıb ki, muxtar respublikada görülən böyük quruculuq işləri, yaradılan dayanıqlı ictimai-siyasi sabitlik ulu öndərin işıqlı ideyalarına sadiqliyin bariz ifadəsidir. Muxtar respublikamızda əldə olunmuş nailiyyətlər bu yolun uğurla davam etdirilməsinin parlaq təzahürüdür.

Tədbirdə mövzu ilə bağlı çıxışlar olub.

Sonda partiya sıralarına yeni qəbul olmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim edilib.

**Xəbərlər şöbəsi**

## *“Nemətullah Naxçıvaninin həyat və yaradıcılığı”* mövzusunda açıq dərs

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində Naxçıvan Dövlət Universitetinin bir qrup tələbəsinin iştirakı ilə “Nemətullah Naxçıvaninin həyat və yaradıcılığı” mövzusunda açıq dərs keçilib.*

Açıq dərsdə Naxçıvanşünaslıq Mərkəzinin elmi katibi Emin Məmmədov əvvəlcə mərkəzin fəaliyyəti barədə tələbələrə ətraflı məlumat verib. Mövzu ilə bağlı çıxışında o bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2018-ci il 29 oktyabr tarixdə “Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında” Sərəncam imzalayıb. Həmin sərəncam tarixi şəxsiyyətlərimizin həyat və fəaliyyətlərinin öyrənilməsinə yüksək dövlət qayğısının növbəti ifadəsi olmaqla görkəmli şəxsiyyət, böyük alim Nemətullah Naxçıvaninin həyat və yaradıcılığının dərindən öyrənilməsinə hərtərəfli şərait yaradır.



AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev mövzu ilə bağlı ətraflı mühazirə oxuyaraq vurğulayıb ki, Naxçıvanın görkəmli yetirmələrindən biri olan Nemətullah Naxçıvani 1452-1514-cü illərdə yaşayıb, təsəvvüf və təfsir alimi kimi tanınıb. Onun elmi dünyagörüşünün formalaşmasında və kamilləşməsində Naxçıvan ictimai-mədəni və elmi mühitinin mühüm təsiri olub. Şərqin böyük mütəfəkkiri Nemətullah Naxçıvaninin yaradıcılığında qədim türk sivilizasiyası ilə İslam dini dünyagörüşünün vəhdət təşkil etməsi onu həm də türk-islam alimi kimi tanıdıb, hətta öz dövründə alimlərin ən fəzilətlilərindən biri səviyyəsinə yüksəldib.

Bildirilib ki, dərin biliyə və yüksək mənəvi keyfiyyətlərə malik olan Nemətullah Naxçıvaninin digər təfsirlərə müraciət etmədən yazdığı “Qurani-Kərim”in elmi-nəzəri şərhi olan “Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə” (Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi) əsəri islamşünaslığa böyük töhfə olmaqla yanaşı, həm də ona şöhrət qazandırıb. Sufi şeyxi və filosofun “Hidayət əl-İxvan” (Təsəvvüfə dair əsər), Mühyiddin ibn Ərəbinin “Füsusəl hikəm”inə yazdığı təsəvvüfə bir şərh, “Əl-Kadi təfsiri haşiyəsi”, Şeyx Mahmud Şəbüstərinin “Gülşəni-raz” adlı təsəvvüfə dair farsca əsərinin eyni dildəki şərhi, Qazi Beyzavinin “Ənvar ət-Tənzil və əsrar ət-Təvil” əsərinə haşiyə (qeydlər) kimi şərh və məqalələri günümüzə qədər gəlib çatıb.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Əhaliyə yüksək səviyyəli avtonəqliyyat xidməti göstərilir

Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti oktyabr ayında muxtar respublika əhalisinə göstərilən avtonəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir. Belə ki, sərnişin daşımalarını yerinə yetirən sürücülərin iştirakı ilə seminar-müşavirə təşkil olunmuş, taksilərin texniki müayinəsi aparılmışdır.

Payız-qış mövsümünə hazırlıqla bağlı verilmiş tapşırıqların icrası ötən dövrdə də davam etdirilmiş, ictimai nəqliyyatda xidmətin keyfiyyətinə və xəttə buraxılan avtonəqliyyat vasitələrinin texniki cəhətdən saz olmalarına nəzarət artırılmış, uçqar dağ kəndlərinə işləyən nəqliyyat vasitələrinin sahibkarları ilə əlaqə saxlanılmış, mövcud çatışmazlıqların aradan qaldırılması üçün onlara lazımi köməklik göstərilmişdir. Həmçinin avtovağzalların payız-qış mövsümünə hazırlığı diqqət mərkəzində saxlanılmış, şəhərlərarası və rayonlararası marşrut avtobuslarının hərəkət qrafiki daha da təkmilləşdirilmişdir.



Oktyabr ayında beynəlxalq sərnişindaşıma xidməti göstərən avtobusların fəaliyyətinə nəzarət gücləndirilmiş, Naxçıvan-İqdır-Naxçıvan marşrutunda gündəlik sərnişindaşıma xidməti həyata keçirilmişdir. Payız-qış mövsümündə sərnişinlərin rahatlığını təmin etmək üçün Naxçıvan-Bakı-Naxçıvan marşrutunda işləyən avtobuslardan birinin hər gün Şərur və Culfa avtovağzallarından yola salınması, Şahbuz və Ordubad avtovağzallarında isə Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutuna bilet satışı davam etdirilmişdir. Bu dövrdə Naxçıvan-Bakı-Naxçıvan marşrutu ilə hər iki istiqamətə 1344 sərnişin daşınmış, muxtar respublikanın bütün yaşayış məntəqələri marşrutla təmin edilmiş, 481 taksi əhaliyə xidmət göstərmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin mətbuat xidməti***

## Fövqəladə hallara hazırlıq işləri davam etdirilir

Muxtar respublikada fövqəladə hallara hazırlıq sahəsində qarşıya qoyulmuş vəzifələr vaxtında icra olunur. Oktyabr ayında da nazirliyin rayon dövlət yanğın təhlükəsizliyi şöbələrində yoxlama, taktiki-xüsusi təlim və məşğələlər keçirilmişdir. Texniki təhlükəsizliyin təmin olunması, qəza və hadisələrin vaxtında qarşısının alınması məqsədilə 2 obyekt, 7 avadanlıq və qurğu dövlət reyestrində qeydiyyata alınmış, 2 müəssisədə 8 təhlükə potensiallı qurğu və avadanlıq sertifikatlaşdırılmış, 21 obyektdə mühafizə işinin təşkili yoxlanılmışdır.

Ötən dövrdə 29 ticarət obyekti tərəfindən standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya gətirilməsinin və istismarının qarşısı alınmış, 740 qazanxanaya baxış keçirilmiş, cavabdeh şəxslərlə maarifləndirici söhbətlər aparılmışdır. Ocaqçı-maşinist ixtisası üzrə şəhadətnaməsi olmayan 248 nəfər müvafiq kurslara cəlb edilmiş, Naxçıvan Şəhər Peşə Liseyində bu ixtisas üzrə təhsil alan mü-davimlər üçün məşğələ keçirilmişdir. Yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə 365 obyektdə, 5964 şəxsi yaşayış evində, 68 yaşayış binasında yanğına qarşı yoxlamalar, mülki müdafiə işinin təşkili və işçilərin fövqəladə hallara hazırlığı ilə bağlı 9 obyektdə maarifləndirici tədbir, 27 obyektdə mülki müdafiə qüvvələrinin qrup məşğələsi, 17 məktəbdə nümunəvi dərslər keçilmiş, 4 mərkəzi icra hakimiyyəti orqanının mülki müdafiə planı hazırlanmışdır. Bundan başqa, tikilməkdə olan və yenidən qurulan 46 obyektdə tikinti işlərinin norma və qaydalara uyğun aparılmasına nəzarət edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Pedaqoji təcrübənin yekun konfransı olub

*“Naxçıvan” Universitetinin Pedaqoji və Xarici dillər fakültələrinin əyani şöbə üzrə təhsil alan tələbələrinin 2018-2019-cu tədris ilinin payız semestrində keçdikləri pedaqoji təcrübəyə həsr edilmiş yekun konfrans olub.*

Tədbiri giriş sözü ilə universitetin tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu açaraq bildirib ki, pedaqoji təcrübə təhsil müddətində qazanılan nəzəri bilikləri möhkəmləndirməklə peşə vərdişlərinə yiyələnməyə imkan verir. Təcrübə dövründə metodistlərin, müəllimlərin və tələbələrin üzərinə böyük məsuliyyət düşdüyünü də qeyd edən prorektor universitetdə ixtisaslı pedaqoji kadr hazırlığı prosesində ali və orta ümumtəhsil müəssisələrinin müntəzəm əməkdaşlığına, dünya təhsil sisteminə inteqrasiyaya, nəzəri bilik və təcrübə mübadiləsinə xüsusi əhəmiyyət verildiyini nəzərə çatdırıb. O, ümumilikdə, 112 tələbənin Heydər Əliyev adına tam orta məktəbdə, 8 və 15 nömrəli tam orta məktəblərdə 7 həftəlik təcrübəni uğurla başa vurduğunu deyib.

Konfransda Pedaqoji fakültənin dekanı Nurlana Əliyevanın “Pedaqoji fakültə ixtisasları üzrə təcrübənin yekunları haqqında”, Xarici dillər fakültəsinin dekanı Yasin Babazadənin “Xarici dil müəllimliyi ixtisası üzrə təcrübənin yekunları haqqında”, metodist Tural Paşayevin “Pedaqoji təcrübənin ümumi yekunları haqqında” çıxışları dinlənilib.

**Nuray ƏSGƏROVA**

## Ordubad mətbəxinin ləziz yeməkləri

*Azərbaycanın incisi kimi tanınan Ordubad zəngin tarixi keçmişi, tanınmış şəxsiyyətləri, barlı-bəhərli meyvə bağları ilə yanaşı, həm də ləziz mətbəxi, müxtəlif təamları ilə özünə şöhrət qazanıb. Bu bölgənin zəngin mətbəx nümunələrinin şöhrəti ölkə hüdudlarından kənarda da yayılıb. Ordubadın qayğanağı, paxlavası, daş küftəsi, əriştə aşı və adını sadalamadığımız onlarla belə məşhur nemətləri məhz bu zəngin mətbəx mədəniyyətinin nəticəsi kimi müasir dövrdə də süfrələrimizin bəzəyinə çevrilib.*





İlk olaraq haqqında bəhs edəcəyimiz yemək bu diyarın ləziz mətbəx nümunələrindən biri – Ordubad qayğanağıdır. Yeməyin bişirilmə qaydasından danışan Ordubad rayonunun Bist kənd sakini Tutu Quliyeva deyir ki, bu diyarın mətbəx nümunələrini başqa heç yerdə dadmaq mümkün deyil. Belə dadı əldə etmək üçün bu işdə ustalıq və yerli məhsullardan istifadə vacibdir. Məsələn, Ordubad qayğanağı adından sadə görünsə də, hazırlanması çox çətindir. Çünki bu, gündəlik 1-2 yumurta və yarı qaşıq yağla hazırlanan adi qayğanaq deyil. Onu hazırlamaq xeyli vaxt və zəhmət tələb edir. Bunun üçün ən az 2 kiloqram kərə yağı, 18-20 ev yumurtası və 1 stəkan baldan hazırlanmış şirə lazım olur. Tutu nənə deyir ki, bu qayğanaqdan səhər bir dilim yedinsə, axşamadək aclıq hiss etmirsən. Bəs adı dillər əzbəri olan Ordubad qayğanağı necə hazırlanır?

Tutu nənə deyir ki, bunun üçün 18-20 yumurtanı taxta qaşıqla ağarana qədər yaxşıca qarışdırırıq. Nənə, xüsusilə qeyd edir ki, bu zaman mikserdən istifadə etmək düzgün deyil. Əks halda qayğanaq istədiyimiz kimi alınmayacaq. Daha sonra 2 litrə yaxın yağı bir az dərin qazana əlavə edib ocaqda qızdırırıq. Yumurta qaynar yağa əlavə olunduqca onu oxlov ilə astaca qarışdırırıq. Yumurtanın bir üzü bişdikdən sonra çevirir, hər tərəfi bişdikdən sonra isə qayğanağı çıxarıb qaba qoyuruq. Baldan hazırladığımız soyuq şərbəti qayğanaq soyuduqdan sonra üzərinə əlavə edirik.



Tutu Quliyevadan hazırlanma qaydasını öyrəndiyim digər yemək isə nənələrimizdən bizə yadigar qalan, qədim mətbəx mədəniyyətimizin ləziz nümunələrindən olan əriştə aşı haqqındadır. Onun sözlərinə görə, bu xörəyi hazırlamaq üçün bir gün əvvəlcədən maş (lobya) ılıq suda isladılır. Sonra sadə lavaş xəmirindən, yeni un, su və duzdan hazırlanmış qatı xəmir incə-incə doğranıb, unlanır. Daha sonra bir ədəd baş soğan yağda qovurulur və üzərinə qış üçün tədarük gördüyümüz qovurma, alça turşusu, ələyəz, lobya və bir miqdar su əlavə edilir. Bu ərzaqlar bişdikdən sonra yeməyə yeni kəsilmiş əriştə, duz və istiot əlavə olunur, bir neçə dəqiqə qaynadıqdan sonra ocaqdan götürülür.

Ordubadın digər sevimli yeməklərindən biri də daş-toxmaq küftəsidir. Tutu nənə deyir ki, bu yemək ancaq mal ətindən, özü də, əsasən, malın bud, qol, yaxud bel hissələrindən götürülmüş ətdən hazırlanır. Adından da göründüyü kimi, küftə üçün lazım olan ət qiymə-qiymə doğrandıqdan sonra yastı çay daşının üstündə tut ağacından hazırlanan toxmaqla döyülür. Sonra əvvəlcədən isladılmış noxud ləpəsi, baş soğan, qurudulmuş ətirli göyərtilər, xüsusilə dağ nanəsi və dağ məzrəsi ətlə birlikdə döyülür. Bu ərzaqlara hər toxmaq vurulduqdan sonra bıçaqla, yaxud da ki, buna bənzər bir alətlə o tərəf bu tərəfə çevrilir ki, yaxşıca əzilsin. Ərzaqlar tam döyülüb hazır olduqdan sonra üzərinə istiot, duz, sarıkök əlavə edilib iki əllə möhkəmcə yumrulanır. Kimisi zövqə görə küftələrin içinə qurudulmuş albuxara, yaxud alça da qoyur ki, bu da küftəyə xüsusi turşməzəlik verir. Daha sonra soğan yağda qovurulur, üzərinə bir neçə dilim kartof, bibər, pomidor əlavə edilib qaynadılır. Yumrulanan küftələr qaynar suya salınır. Tutu nənə onu da bildirir ki, küftələr açılmasın deyə yemək vam odda bişirilməlidir.

Məhz Ordubada məxsus digər mətbəx nümunəsi isə Tutu nənənin bizim üçün hazırladığı cəvizli Ordubad dürməyi oldu. Bunun üçün nənə kərə yağını xama ilə qarışdırıb, üzərinə un əlavə edərək xəmir yoğurdu. Daha sonra içlik üçün cəviz ləpəsini tavada qovurub, həvəngdəstədə döydü. Cəvizin üzərinə şəkər tozu, bal və ədviyyat əlavə edib qarışdırdı. Xəmiri kiçik paylara bölüb, təxminən, 3-5 millimetr qalınlıqda yaydı. Yayılmış xəmirin üzərinə içlik qoyub onu rulet formasında bükdü. Üzərinə yumurtanın sarısını çəkərək sobaya qoydu. Bir neçə dəqiqədən sonra sobadan çıxan cəvizli Ordubad dürməyinin xoş ətri otağa yayıldıqca Tutu nənədən hazırlanma qaydasını öyrəndiyim digər Ordubad yeməklərini də bişirməyə səbirsizlənirəm. O isə Ordubadın təbii gözəlliklərindən, iqlimindən, nurlu və mehriban insanlarının əlindən dad alan yeməklərindən açıq-aşkar öyünərək, məmnuniyyətlə söhbət açır.

✍ **Gülcamal TAHİROVA**

### *İtmişdir*

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 62, mənzil 2-də yaşamış Əhmədov Abbas Hüseyn oğlunun adına olan 6966 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 844